# "Qarabağ ədəbi-mədəni mühiti yeni baxış müstəvisində" mövzusunda tədbir

**Azərbaycan Respublikası Prezidentinin Şuşa şəhərinin 270 illiyi münasibətilə 2022-ci ili "Şuşa İli" elan etməsi Sərəncamından irəli gələrək AMEA Gəncə Bölməsində "Qarabağ ədəbi-mədəni mühiti yeni baxış müstəvisində" mövzusunda respublika konfransı keçirilib.**





Konfransı giriş sözü ilə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov açaraq qeyd edib ki, 2022-ci ilin "Şuşa İli" elan olunması həm Şuşamızın, həm də bütünlükdə Azərbaycan mədəniyyətinin inkişafına misilsiz töhfələr verəcək. Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ərəfəsində "Şuşa İli" çərçivəsində bu cür elmi-praktik konfransın təşkil edilməsi olduqca əhəmiyyətli hadisədir. AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev qeyd edib ki, 2022-ci ilin "Şuşa İli" elan olunması Şuşanın inkişafına istiqamətlənib və Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, ədəbiyyatının, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliğinə sanballı töhfələr verəcək.

Konfransdan sonra iştirakçılar proqrama uyğun olaraq Gəncədə Ermənistan silahlı birləşmələrinin raket atəşinə məruz qalan ərazini, Heydər Əliyev Park-Kompleksini, İmamzadə dini ziyarətgahı və Nizami Gəncəvi Məqbərəsini ziyarət ediblər.

**Vaqif TANRIVERDİYEV,**
**AMEA Gəncə Bölməsində şöbə müdiri.**

Respublika.- 2022.- 10 may.- S.11.